# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№355/4** **13 aprel 2023-cü il**

## “Auditorun şəxsi kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat”ın təsdiq edilməsi barədə

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə, “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası”nda (2021-2030-cu illər) həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının təqvim planının 10.1-ci “Auditorların hesabatlarının interaktiv qəbulu və emalı” və 10.2-ci “E-kargüzarlıq sisteminin tətbiqi və e-imza tətbiq olunmaqla sənəd dövriyyəsinin təşkili” bəndlərinə və həmin konsepsiyanın 5.4-cü “Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətləri” bölməsinə uyğun olaraq hazırlanmış “Auditorun şəxsi kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorun şəxsi kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat” təsdiq edilsin (təlimat əlavə olunur).

2. “Auditorun şəxsi kabineti” sistemindən istifadə zamanı bu təlimatın müddəalarının tələblərinin icrasının məcburi xarakter daşıması auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərlərinə çatdırılsın, müqavilələrin və rəylərin qeydiyyatının bu təlimata uyğun olaraq düzgün və vaxtında aparılması onlardan tələb edilsin.

3. Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov), Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, 2023-cü ilin may ayında “Auditorun şəxsi kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat” barədə auditor təşkilatlarına və sərbəst auditorlara vebinarın keçirilməsi təmin edilsin.

4. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu Təlimatın Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

5. Auditorlar Palatası Şurasının 2021-ci il 12 iyul tarixli 332/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditorun şəxsi kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat” qüvvədən düşmüş hesab edilsin.

6. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bir həftə müddətində bu qərarın və Təlimatın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**